# Dünya erməni vandalizminin nəticələrini görür və qınayır



**Prezident İlham Əliyev ötən il noyabrın 6-da BBC News-a müsahibə verəndə hələ Şuşa da işğaldan azad edilməmişdi, Ermənistan da kapitulyasiya aktını imzalamamışdı. Ancaq İlham Əliyev qətiyyətli idi, inanırdı ki, zəfər bizim olacaq. Biz qaniçən düşmənlərimizin işğal olunmuş ərazilərimizdə törətdiyi vəhşilikləri dünyanın nəzərinə çatdıracağıq.**

Bu, o zaman idi ki, az qala həftədə bir rayonumuz düşmən işğalından azad edilirdi. 30 il düşmən əlində olan strateji məntəqələrin, hərbi əhəmiyyətli yüksəkliklərin ard-arda işğaldan azad edilməsinə baxmayaraq, Azərbaycanın zəfər çalmasına inanmayanlar da var idi və onların boşboğazlığı düşmənin dəyirmanına su tökürdü. Prezident İlham Əliyev isə nəinki qələbənin yaxınlıqda olduğunu bilirdi, hətta, torpaqlarımız azad ediləndən sonra atacağımız addımların məzmun və miqyasını da dünya ictimaiyyətinə çatdırırdı. Ali Baş Komandanımız 44 günlük müharibə dövründəki və şanlı qələbəmizdən sonrakı bütün müsahibə və müraciətlərində beynəlxalq ictimaiyyətin rəyinə böyük hörmət və ehtiramla yanaşdığını söyləyir və Azərbaycanın haqq işinin hamı tərəfindən dəstəklənəcəyinə inandığını bildirirdi.

Bu inamın nəticəsi artıq göz qabağındadır. Təkcə türkdilli ölkələr, yaxın qonşularımız, müsəlman dövlətləri deyil, az qala dünyanın bütün ölkələri Azərbaycanın qələbəsini alqışlayır, son 30 ildə ərazilərimizin 20 faizini viranəyə çevirmiş terrorçu, təxribatçı, oğru, qarətçi, vəhşi xislətli düşmənlərimizi lənətləyirlər. Təbii ki, bu sırada Qoşulmama Hərəkatına üzv olan ölkələrin təşəbbüskarlığı daha qabarıq görünür.

Sevindirici haldır ki, dövlət qurumlarımız və məsul şəxslər Prezidentin hələ noyabrın 6-da dilə gətirdiyi "Biz ekologiyamıza, infrastrukturumuza, evlərini itirmiş mülki şəxslərimizə və dövlətimizə, tarixi irsimizə dəymiş ziyanı qiymətləndirmək üçün beynəlxalq ekspertləri dəvət edəcəyik" tezisini günün reallığına çevirirlər. Məhz Ali Baş Komandanın təlimatına uyğun olaraq, səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəlikləri rəhbərlərinin artilleriya hücumlarına məruz qalmış şəhər və kəndlərimizə, eləcə də işğaldan azad edilmiş rayonlara səfərlərinin təşkil edilməsi dünya ictimaiyyətinin erməniləri daha yaxşı tanımasına imkan verir. Biz fevralın 6-da işğaldan azad olunmuş Cəbrayıl və Zəngilan rayonlarına səfər edən diplomatların orada gördüklərindən sonra dilə gəririrdikləri heyrət və qəzəbin miqyasına şahid olduq.

Son səfərdə də diplomatik korpusun nümayəndələrini Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici Siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Birinci vitse-prezidentin köməkçisi Elçin Əmirbəyov və digər rəsmi şəxslər müşayiət edirdilər.

Bu yerdə, bir məqamı xüsusilə vurğulamağa zərurət var. İşğaldan azad edilmiş bütün şəhər və rayonlarımızda dağıdılmamış hansısa divarın qalmadığını hamı yaxşı bilir. Yəni bu səfərin təşkilatçıları xarici ölkə təmsilçilərini öncə Füzuliyə və ya Ağdama apara bilərdilər. Ancaq onlar əcnəbi dostlarımızı öncə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə apardılar. Nə üçün? Əvvələ, bizimkilər diplomatlara göstərmək istəyirdilər ki, erməni işğalından azad edilən ərazilərimiz məhz bu şəkildə bərpa edilir və yenidən qurulur. İkinci, təşkilatçılar diplomatlara Cocuq Mərcanlını göstərilər və dedilər ki, baxın, bu kənddə hansısa hərbi obyekt varmı və ya olubmu? Yoxdursa və olmayıbsa, 44 günlük müharibədə Cocuq Mərcanlı nə üçün atəşlərə məruz qalırdı? Xatırladaq ki, həmin Vətən müharibəsi günlərində Ermənistan ordusunun kəndə atdığı raket və mərmilərin dağıtdığı 45 evdə tikinti-bərpa işləri davam edir.

Qonaqlara bildirilib ki, 2016-cı ilin Aprel döyüşlərindən sonra Cocuq Mərcanlı ətrafında təhlükəsizlik təmin olunmuşdu. Kənd bundan əvvəl Azərbaycanın nəzarətində olsa da, Lələtəpə yüksəkliyi Ermənistan silahlı qüvvələrinin əlində olduğu üçün burada tikinti-quruculuq işləri aparmaq mümkün deyildi. Hətta diplomatik korpus nümayəndələri 2017-ci ilin fevralında bu kəndə səfər etmiş və tamamilə dağılmış kəndi gözləri ilə görmüşdülər.

> ***Bizim Ermənistan dövlətinin Azərbaycana və vətəndaşlarımızın əmlakına vurduğu ziyanı qiymətləndirməyə ehtiyacımız olacaq. Çünki azad edilmiş ərazilərdə, demək olar ki, hər şey dağıdılıb... Ona görə də, biz, ilk növbədə, dəymiş ziyanı qiymətləndirəcəyik. Biz ekologiyamıza, infrastrukturumuza, evlərini itirmiş mülki şəxslərimizə və dövlətimizə, tarixi irsimizə dəymiş ziyanı qiymətləndirmək üçün beynəlxalq ekspertləri dəvət edəcəyik.***
>
> **Azərbaycan Prezidenti İlham Əliyevin BBC News-a verdiyi müsahibədən**

Burada başqa bir faktı da xatırlatmağa ehtiyac duyulur. Belə ki, keçmiş Dağlıq Qarabağ münaqişəsinin yaranmasından etibarən daim regiona səfərlər edən dünya şöhrətli fotoqraf Reza Deqati də diplomatik korpus təmsilçilərinə həqiqəti əks etdirən maraqlı faktlar barədə söz açıb. "Görürsünüz ki, Cəbrayıl şəhəri tamamilə dağıdılıb. Bir dənə də bina salamat qalmayıb. Bəziləriniz artıq Ağdam və Füzulidə olmusunuz. Ağdam, Füzuli, demək olar ki, şumlanıb. Ağdam, Füzuli, Zəngilan və Şuşada olduğu kimi, Cəbrayılda da məzarlıqlar dağıdılıb. Siz burada məzardan çıxarılan yüzlərlə insan sümüklərini görürsünüz. Onlar qəbirləri ekskavatorla qazaraq qızıl dişlər axtarıblar. Məzarlıqların bu cür kütləvi şəkildə dağıdılması tarixboyu görünməyib. BMT-yə müraciət edirəm ki, bu məsələyə diqqət yetirsinlər".

Diplomatlar və media təmsilçiləri Prezident İlham Əliyevin şanlı qələbəmizdən sonra Cəbrayıla etdiyi səfər zamanı Azərbaycan–İran sərhədini göstərərək "Dostluq sərhədidir!" dediyi ünvana – Xudafərin körpüsünə də gediblər. Prezidentin köməkçisi mətbuata verdiyi açıqlamada deyib ki, Ermənistan özünü sivil dövlət adlandırır və sivil siyasət yürütdüyünü söyləyirdi. Bu dağıntılar isə Ermənistanın əsl sifətini göstərir. Bu işğal siyasəti müstəmləkəçilik siyasəti ilə müqayisə olunacaq bir vəhşilikdir: "Hər yer tamamilə dağıdılıb, məhv edilib. Azərbaycan xalqına aid nə var idisə dağıdılıb. Bizimlə bu səfərdə müharibə müxbiri və fotoqrafı kimi dünyanın müxtəlif bölgələrində çalışmış mütəxəssislər də iştirak edirlər. Hətta dünyanın hər hansı başqa münaqişə zonasında qəbiristanlıqların dağıdılması hallarına çox nadir rast gəlinir. Görün, bu, vandalizmin hansı dərəcəsidir ki, qəbirlər, qəbir daşları, hətta qəbirin içindəki sümüklər belə dağıdılıb. Biz Cəbrayılda bunun bir daha şahidi olduq."

Türkiyənin ölkəmizdəki səfiri Erkan Özoralın "Cəbrayılda gördüklərimiz insanlıqdan kənardır, əsl vəhşilikdir", Böyük Britaniyanın ölkəmizdəki səfiri Ceyms Şarpın "Bura gəlib mənzərəni yerində görmək əyani təsəvvür yaradır. Təbii ki, işğaldan azad olunan ərazilərdə, Cəbrayılda gördüyümüz vəziyyət barədə ölkəmizə məlumat verəcəyik", Əfqanıstanın Azərbaycandakı səfiri Amanullah Ceyhunun "Cəbrayılda gördüyümüz mənzərə dəhşətli idi. Məzarları qazıb, cəsədləri çıxarıblar. Bu, çox üzücü və insanlıqdan kənar bir əməldir. Mən dağıdılmış məzarları görəndə göz yaşlarımı saxlaya bilmədim", Xorvatiyanın ölkəmizdəki səfiri Branko Zebicin "Cəbrayılda belə bir mənzərəni görmək, doğrudan da, çox ağrılıdır", Liviyanın Azərbaycandakı müvəqqəti işlər vəkili Əşrəf Adəmin " Bu ərazilərdə daş-daş üstə qalmayıb. Məzarlığın və qəbirlərin darmadağın edilməsi onların insanlığa sığmayan əməllərinin göstəricisidir" ifadələri Ermənistan dövlətinin siyasətini, erməni hərbçilərinin isə insanlıq səviyyəsini sübut edirdi.

Amma fikrimizcə, bu məzmunlu ən konkret ifadələri Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğandan eşitmişik. O, Bakıda keçirilən Zəfər paradındakı nitqində demişdir: "Azərbaycanın torpaqlarını işğaldan azad etməsi heç də mübarizənin başa çatması demək deyildir. Bu günə qədər siyasi və hərbi sahələrdə davam etdirilən mübarizə bundan sonra çox fərqli cəbhələrdə davam edəcəkdir. Otuz illik işğal müddətində bu bölgələrin viranəyə çevrildiyini, daş üstündə daş qalmadığını hamımız birlikdə gördük. Qardaşım İlham Əliyevin dediyi kimi, Füzuli şəhərində bayraq asmağa belə bina tapılmamışdır. Bütün şəhərlər tar-mar edilmiş, bütün kəndlər yerlə-yeksan olunmuş, məzarlıqlar belə dağıdılmışdır. Məscidlər dağıdılmış, minarələr eynilə tar-mar olmuşdur. Ermənilər hər şeyi məhv etdikləri kimi, tarixi və mədəni abidələri də, təbii sərvətləri də qarət etdilər. Bütün bu ziyanın hesabı sorulmalıdır".

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***